**Büdcə daxilolmaları üzrə proqnozlar uğurla icra olunmuşdur**

Maliyyə Nazirliyindən verilən rəsmi acıqlamaya görə, 2011-ci ildə icmal büdcənin gəlirləri 23,2 milyard manat və ya 116%, xərcləri isə 17,6 milyard manat və ya 94,4% icra olunmuşdur. Dövlət büdcəsinin mədaxili 15,7 milyard manat və ya 100,9%, xərcləri isə 15,4 milyard manat və ya 96,6% təşkil etmişdir. 2010-cu ilə nisbətən 2011-ci ildə dövlət büdcəsindən təhsil, səhiyyə, mədəniyyət, sosial müdafiə və sosial təminat, müdafiə, məhkəmə hakimiyyəti, hüquq-mühafizə və prokurorluq orqanlarının saxlanılması, kənd təsərrüfatı, dövlət əsaslı vəsait qoyuluşu xərclərinə orta hesabla 27,8% çox vəsait yönəldilmişdir.
Açıqlamada bildirilir ki, ilk dəfə olaraq 2012-ci il və sonrakı üç ili əhatə edən dövrdə dövlət büdcəsi, həmçinin həmin dövr üçün icmal büdcənin göstəriciləri hazırlanaraq layihə şəklində Milli Məclisə təqdim edilmişdir. Nazirlikdən verilən məlumatda büdcə prosesinin təkmilləşdirilməsi işinin bundan sonra da davam etdirilməsinin vacibliyi və xüsusilə təhsil, səhiyyə sahələri üzrə maliyyələşmənin təkmilləşdirilməsinə, daha müasir maliyyələşmə prinsiplərinin tətbiqinə ehtiyac olduğu qeyd edilmişdir.